PRESS-RELİZ

## Azərbaycan - Gürcüstan Ərazi Əməkdaşlıq çərçivəsində əsas məqamlar vurğulandı

***Tiflis, 27 Oktyabr, 2014 – Azərbaycan və Gürcüstan arasında ərazi əməkdaşlıq çərçivəsində bu ərazilərədə mövcüd olan problem və prioritetlər, 2014, il Oktyabrın 31-i Tiflisdə keçiriləcək Birləşmiş Qərar Komitəsinin (Inaugural Joint Decision Making Committee) görüşündə müzakirə müvzusu olacaq. Görüş Gürcüstan, Tiflis, Qələbə Meydanı (4, Freedom Square), Marriott Courtyard Otelində keçiriləcək.***

Azərbaycan və Gürcüstanın yerli və dövlət strukturları, qeyri hökümət təşkilatları və vətəndaş cəmiyyətlərinin nümayəndələri "Azərbaycan – Gürcüstan Ərazi Əməkdaşlıq Qrant Proqramı" çərçivəsində Birgə Fəaliyyət Proqramın (JOP) əsas istiqamətlərini müəyyən etmək məqsədi ilə toplaşır. Prioritetlər, tələblər və benefisiarlar, habelə istifadə olunan üsüllar Birgə Fəaliyyət Proqramının (JOP) əsas elementləridir. İştirakçılar, Azərbaycan və Gürcüstan bölgələrində keçirilmiş Birgə Fəaliyyət Proqramının ictimai müzakirələrinin nəticələrini nəzərdən keçirərək, Təkliflərin Təqdim Olunması məqamının başlanması üçün proqramlaşdırma sənədlərini həmin nəticələrə uyğun hazırlayacaqlar. Proqramın büdcəsi 1.35 million EUR təşkil edir. Proqram Azərbaycanın Gəncə-Qazax və Şəki – Zaqatala, Gürcüstanın isə Kvemo Kartli və Kaxeti regionlarını əhatə edəcək.

Həmin görüşdə "Azərbaycan – Gürcüstan Ərazi Əməkdaşlıq Proqramında mühüm rol oynayan Birgə Qərarqəbuledici Komitənin tərkibi də təstiqlənəcək. (The Joint Decision Making Committee). Birgə Qərarqəbuledici Komitənsinin (JDMC) həmsədrləri Azərbaycan İqtisadiyyat və Sənaye Nazirliyinin Beynəlxalq Təşkilatlarla Əməkdaşlıq departamentinin rəisi Ruslan Rüstəmli və Gürcüstan Regional İnkişaf və İnfrastruktur Nazirliyinin nazir müavini Tenqiz Şenqelaşvilidir.

Birgə Qərarqəbuledici Komitənsinin (JDMC) görüşü Şərqi Tərəfdaşlıq üzrə Ərazi Əməkdaşlığına Dəstək Proqramının (EaPTC) Cənubi Təşkilatı rəhbərliyi və (EaPTC) Dəstək Proqramı tərəfindən həyata keçirilir.

*Tarixçə:* Şərqi Tərəfdaşlıq üzrə Ərazi Əməkdaşlığın Dəstək Proqramının (EaPTC) Belarus-Ukraina, Azərbaycan – Gürcüstan, Ermənistan – Gürcüstan və Moldova – Ukraina sərhədyanı ikitərəfli əməkdaşlıq imkanlarını artırmaq, həmin bölgələrdə fəaliyyət göstərən yerli və dövlət strukturlarının, habelə qeyri hökümət təşkilatlarının gücünü artırmaq, sərhədyanı layihələrin həyata keçirilməsini təşkil etmək məqsədi ilə yaranıb. Avropa Birliyi tərəfindən EaPTC layihəsinə ayrılan məbləğ 12.5 million EUR təşkil edir.
Şərqi Tərəfdaşlıq (EaP) Avropa Birliyinin təşəbbüsü ilə Şərqi Avropanın altı ölkəsinə və Cənubi Qavgaz ölkələrinə: Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova və Ukrainaya yönəldilib. Məqsəd – Avropa Birliyinin və Şərqi Tərəfdaşların əlaqələrini daha möhkəmləşdirmək, siyasi əməkdaşlığı və iqtisadi intiqrasiyanı gücləndirməkdir.

Əlavə məlumat üçün Tatiana Derevyankina, EaPTC Əlaqələr üzrə Ekspertə müraciyət edin
e-mail: tatiana.derevyankina@eaptc.eu
http://www.eaptc.eu
https://www.facebook.com/eaptc.eu
https://twitter.com/EaP_TC
http://www.linkedin.com/groups/EaPTC-5109143